AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN ƏCZAÇILIQ SEKTORUNUN STRATEJİ İNKİŞAFINDA İNNOVATİV SİYASƏTİN BƏZİ ASPEKTLƏRİNİN ÖYRƏNİLMƏSİ

İxtisas: 3400.01 – Dərmanların alınma texnologiyası, əczaçılıq işinin təşkili

Elm sahəsi: Əczaçılıq

İddiaçı: **Səyyəddin Abdulla oğlu Atakişizadə**

Əczaçılıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

Bakı – 2025

Dissertasiya işi Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Əməkdar müəllim,
əczaçılıq elmlər doktoru, professor
**Məhbubə Nəbi qızı Vəliyeva**

**Rəsmi opponentlər:** Əczaçılıq elmlər doktoru,
**Dilfuza Botirali kizi Mirakilova**

Əczaçılıq elmlər doktoru, dosent
**Taisiya İvanovna Kabakova**

Əczaçılıq elmləri üzrə fəlsəfə doktoru
**Ülkər Mirzağa qızı Məcidova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən BFD 4.18 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______________

Əczaçılıq elmlər doktoru,
professor
**Eldar Abdulla oğlu Qarayev**

Dissertasiya şurasının elmi katibi: ______________

Əczaçılıq elmləri üzrə
fəlsəfə doktoru, dosent
**Sənəm Eldar qızı Əliyeva**

Elmi seminarın sədri: ______________

Əczaçılıq elmlər doktoru,
professor
**Ayro (Andreyeva) İrina Nikolaevna**

İMZANI TƏSDİQ EDİRƏM
Azərbaycan Tibb Universitetinin
ELMİ KATİBİ
Tibb üzrə fəlsəfə doktoru, dosent
Rəşad Şəmsəddin oğlu Talışınskiy
"17" 04 2025 il

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**İşin aktuallığı.** Məlum həqiqətdir ki, təhsil elmsiz, elm təhsilsiz inkişaf edə bilməz. Bu iki strateji sahə bir-biri üçün tədqiqat və tətbiq obyektidir. Onların vəhdətini, qarşılıqlı zənginləşməsini, ümumi məqsədlərə yönəldilməsini təmin etmədən cəmiyyətdə dayanıklı inkişafa nail olmaq qeyri-mümkündür[1]. Cəmiyyətin dayanıklı inkişafı üçün ona xidmət edən xalq təsərrüfatının bütün sahələrinin, o cümlədən əczaçılıq sektorunun da inkişafı xüsusi əhəmiyyət kəsb edir. Müstəqil Azərbaycan Respublikasında əczaçılıq sektoru hərtərəfli və özünəməxsus formada inkişaf edir. Hər bir ölkədə əczaçılığın inkişafı üçün əczaçılıq fəaliyyətinin milli strategiyası formalaşır. Inkişaf etmiş ölkələrdə Ümumdünya Səhiyyə Təşkilatının tələblərinə əsaslanaraq Milli Dərman siyasəti işlənib hazırlanır, dövlət səviyyəsində təsdiq olunur, bir qanun kimi əczaçılığın inkişafı üçün hüquqi, rəhbər bir sənədə çevrilir.

Milli əczaçılıq sektorunun inkişafı strateji, sosial və iqtisadi əhəmiyyət kəsb edir. Ona görə dövlətimizin strateji prioritetlərindən biri də ölkəmizdə əczaçılıq sektorunun strateji inkişafına aid siyasətini uğurla həll edib, əhalimizi fasiləsiz, səmərəli, keyfiyyətli və təhlükəsiz dərmanlarla təmin etməkdən ibarətdir.

Bu günə qədər ölkəmizin əczaçılıq sektorunda ardıcıl aparılan innovasiya siyasəti fraqmentar xarakterli olub, əsasən aptek biznesinin rəqabətlilik strategiyasının artmasına və ya əhalinin dərman təchizatı sistemində dövlət strukturlarının modernləşməsinə aid olmuşdur.

Buna müvafiq olaraq kafedramızın alimləri tərəfindən bu və ya digər elmi-əsaslı tədqiqatlar aparılıb və əczaçılıq sektorunda idarəetmənin metodik yanaşmaları öyrənilmişdir (Vəliyeva M.N., 1997-2024; Naibov N.M.,1986; Qasımova G.N., 2003; Əliyev N.A., 2004; İsmayılova L.N., 2005; Məhərrəmova S.H., 2007; Mədətli F.İ.,

---

[1] Misir Mərdanov. Azərbaycan təhsili: gələcəyə baxış, Azərbaycan 2020 - inkişafın yeni mərhələsi, Bakı, 2012, 609-617 s.

2010; Zülfüqarova N.S., 2011; Cəlilova K.İ., 2011; Bağırova A.B., 2013; Xəlilov N.Q., 2024, Abdullayev E.Z., 2024 və b.).

Alınan nəticələr müxtəlif infrastruktur sistemlərdə dərman siyasətində innovativ prosesləri xarakterizə etməyə, daxili mühitin ona təsirini və ölkəmizidə əczaçılıq sektorunun innovativ qanunauyğunluğunu təhlil etməyə imkan yaratmışdır.

Hazırda Azərbaycanın əczaçılıq bazarı kifayət qədər yüksək rəqabət səviyyəsi ilə xarakterizə olunur. Əczaçılıq fəaliyyətinin effektivliyinin onun daxili potensialından asılılığının artması müşahidə edilir. Onun da daxili potensialının əsasını əczaçılıq mütəxəssisi təşkil edir.

Əczaçı mütəxəssisin təşəkkül tapması sisteminin təkmilləşdirilməsi artıq ilkin mərhələdə - xüsusi əczaçılıq təhsilinin alınması mərhələsində öz aktuallığını göstərir. Əczaçılıq sahəsində fəaliyyət göstərən mütəxəssislər əczaçılıq təhsili sahəsində islahatların aparılması təklifini irəli sürürlər, çünki əczaçılıq məktəbinin məzunlarının klassik şəkildə bilikləri toplaması ilə müasir əczaçılıq bazarının tələbatı arasındakı fərq getdikcə dərinləşməkdədir.

Bazar münasibətlərinə keçid köklü şəkildə Azərbaycan əczaçılıq biznesini dəyişmişdir. Kəskin şəkildə əczaçılıq məhsullarının çeşidi artmış, bu isə sərt rəqabətin yaranmasına səbəb olmuşdur. Əczaçı işçilərə olan təzyiq dəfələrlə artmışdır ki, bu da onlarda peşə stressin, emosional sönmə sindromunun yaranmasına və bir sıra hallarda ixtisasını dəyişmək arsuzunun yaranmasına gətirib çıxarmışdır.

Belə hallarda əczaçılıq sahəsində mütəxəssisin özünün bütün fəaliyyəti boyunca peşə baxımdan təkmilləşdirilməsi məsələsi son dərəcə aktual olaraq qarşıda durur. Buraya ali məktəblərdə baza bilik və bacarıqların əldə edilməsi ilə yanaşı praktik təcrübə və səriştənin də əldə edilməsi daxildir. Yeni elmi yanaşmaların axtarışı və əmək fəaliyyətində əczaçı işçilərin peşə metodlarının işlənib hazırlanması zərurəti yaranmışdır. Müasir konsepsiyalar əsasında mütərəqqi və xarici təcrübə, eləcə də bu prosesdə qeyri-standart yanaşmalar əsasında mütəxəssislər təkcə peşəkarlığın artmasında maraqlı olmamalıdırlar, bu həm də şəxsi,

kollektiv və ictimai maraqların ahəngdarlığını təmin etməlidir. Yuxarıda qeyd olunanları nəzərə alaraq təqdim etdiyimiz tədqiqatın əsas məqsədini və vəzifələrini müəyyən etmək zərurətində olduq[2,3,4,5,6].

**Dissertasiya işinin məqsədi:**

Azərbaycanın əczaçılıq sektorunun strateji inkişafında innovativ siyasətin bəzi aspektlərinin öyrənilməsi, əczaçı mütəxəssisin idarə edilməsi modelinin hazırlanması və elmi cəhətdən əsaslandırılmış kompleks metodik yanaşmaların formalaşdırılmasından ibarətdir.

**Dissertasiya işinin vəzifələri:**

1. Azərbaycanda əczaçılıq sektorunun strateji inkişafinda innovativ siyasəti təhlil etmək;
2. Azərbaycan əczaçılıq bazarında mütəxəssisin idarə edilməsi problemini öyrənmək;
3. Əczaçı kadrların təhsil aldığı dövrdə peşəkar və şəxsiyyət kimi formalaşmasını sistemli təhlil etmək;
4. Azərbaycan Respublikasında əczaçı kadrların adaptasiya və ixtisaslaşdırma mərhələsində ixtisas təşəkkülü prosesini öyrənmək;
5. Əczaçılıq bazarının inkişaf xüsusiyyətləri nəzərə alınmaqla müasir əczaçı mütəxəssislərin innovativ təşəkkül modelini işləyib hazırlamaq;

**İşin elmi yeniliyi:** ilk dəfə olaraq:

---

[2] Atakişizadə S.A., Vəliyeva M.N. Azərbaycanda əczaçılıq və tibb təchizatında innovasion yanaşmalar. Jurnal: Azərbaycan təbabətinin müasir nailiyyətləri. 2015. Bakı, №1, 142-145 s.

[3] Айзман Р.И. Основы медицинских знаний и здорового образа жизни / Р.И. Айзман В.Б. Рубанович, М.А. Суботялов. - Новосибирск: Сибирск. университет. изд-во, 2009. - 214 с.

[4] Армстронг М. Практика управления человеческими ресурсами: пер. с англ. / М.Армстронг. - СПб.: Питер, 2012. - 848с.

[5] Атакишизаде С.А., Велиева М.Н.. Инновационное развитие фармацевтического образования в Азербайджане. European Journal of Biomedical and Life Sciences, Austria, Vienna, 2016 №4, 49-53c.

[6] Атакишизаде С.А. Стратегия фармацевтической этики в инновационной научно практической деятельности фармацевтов. Западный Университет Научный Вестник, журнал, Баку, 2015, №1, 92-97с.

- əczaçı mütəxəssisin inkişaf mərhələlərində, əczaçılıq təhsilin alınmasından başlamış bütün əmək fəaliyyəti boyunca peşə idarəçilik təcrübəsinin qazanılması prosesində onun təkmilləşdirilməsi nəzəri baxımdan sübuta yetirilmişdir.

- müqayisəli araşdırmalarla Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinin, Azərbaycan Dövlət Aqrar Universitetinin Baytarlıq və Əczaçılıq fakültəsinin, Bakı 1 saylı Tibb kollecinin Əczaçılıq şöbəsinin, 2 №-li Bakı Baza Tibb kollecinin Əczaçılıq şöbəsinin tələbələrinin peşə-şəxsiyyət inkişafının məzmun fərqləri aşkar edilmişdir, onların peşəkarlıq keyfiyyəti fərqlidir. ATU-nun Əczaçılıq fakültəsinin tələbələrinin əczaçılıq elminə və əczaçılıq sahibkarlığına sərbəst qərarların qəbul etməsi daha yüksəkdir.

- müasir əczaçılıq bazarının dinamikasının dəyişməsi ilə əczaçı işçilərin yüklənmə dərəcəsi dəyişir, ona görədə mütəxəssislərdə emosional sönmə sindromu faktoru aşkarlanmışdır. İlk dəfə olaraq onların aradan qaldırılmasına aid yeni üsullar və yollar göstərilir.

- əczaçı kadrların idarə edilməsi öyrənildi və sübut olundu ki, müasir azərbaycan əczaçılığının innovativ siyasəti formalaşıb: normativ-hüquqi baza yaradılıb, idarəetmə sistemi mərkəzləşib, yeni, səmərəli və əlverişli idarəetmə texnologiyaları tətbiq edilib, əczaçı kadrların hazırlanmasında müasir konsepsiya işlənib. İnnovasiya kimi ölkəmizdə dərmanlara vahid qiymət (referent) siyasəti qəbul olunub.

- əczaçı mütəxəssisin idarəçilik sisteminin struktur təhlili, əczaçı mütəxəssisin karyerasının gedişatında peşə səriştəliliyinin formalaşması şərtləri aşkarlanmışdır: müəyyən edilmişdir ki, topdan və pərakəndə satış müəssisələrinə rəhbərlik edilməsində həlledici mövqe ATU-nun Əczaçılıq fakültəsinin məzunlarına məxsusdur.

- Azərbaycan əczaçılıq bazarının inkişaf xüsusiyyətlərini nəzərə almaqla əczaçılıq sahəsində mütəxəssislərin peşə təcrübəsinin əldə edilməsi, onların əczaçılıq bazarının yeniliklərini qəbul etmək qabiliyyəti; əczaçılıq sahəsində fəaliyyət göstərən mütəxəssislərin fərdi və ictimai sağlamlığın möhkəmləndirilməsində rolu; əczaçı mütəxəssislərin peşə keyfiyyətlərinin təkmilləşdirilməsi və səriştəliliyinin artırılmasında ictimai təşkilatların, assosiasiyaların, o cümlədən Əczaçılıq Elmi Cəmiyyətinin də rolunun olduğu göstərilmişdir.

- ölkəmizin əczaçılıq bazarında yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üşün innovativ təşəkkül modeli işlənib hazırlanmışdır

**Müdafiəyə təqdim olunan müddəalar:**

- Azərbaycan Respublikasında əczaçı mütəxəssislərin ixtisas hazırlığı sisteminin vəziyyəti öyrənilmişdir.

- Azərbaycan Respublikası əczaçılıq bazarında əczaçı kadrlara olan tələbatın və təhsil mühitindən asılı olaraq tələbələrin peşə-şəxsiyyət xüsusiyyətləri öyrənilmişdir.

- Əczaçılıq təşkilatlarında mütəxəssisin və texnoloji innovasiyaların idarə edilməsində xarici ölkə modellərinin istifadə edilməsi imkanları qiymətləndirilmişdir.

- Əczaçı işçilərdə emosional sönmə sindromunun baş verməsinə, istehsal stressinin təsiri və onun aradan qaldırılması yolları təhlil edilmişdir.

- Əczaçı kadrları hazırlayan Azərbaycan Respublikası əczaçılıq müəssisələri və əczaçılıq peşə təşkilatlarının, tədris müəssisələrinin iştrakı ilə peşə baxımdan kadr hazırlığının modeli təklif olunmuşdur.

**Dissertasiyanın nəzəri əhəmiyyəti** dərman vasitələri ilə davranışda mütəxəssislərin ixtisasının artırılmasının təkmilləşdirilməsinə kompleks yanaşmanın işlənib hazırlanmasından ibarətdir.

**Dissertasiya işinin elmi - praktik əhəmiyyəti** ondan ibarətdir ki, ilk dəfə elmi əsaslı dissertasiya tədqiqatının əsasında əldə edilən nəticələr Azərbaycan Respublikası səhiyyə idarəçiliyi orqanları tərəfindən təsdiq olunub, topdan və pərakəndə satışla məşğul olan təşkilatlar tərəfindən istifadə edilə bilər ki, bu da əczaçı işçilərin yüksək istehsalçılıq əməyi, şəxsi, kollektiv və ictimai maraqların ahəngdarlığı üçün motivasiyasını təmin etmiş olar.

**Tədqiqatın nəticələrinin təcrübəyə tətbiqi**

Aparılan tədqiqatların nəticələrinə əsasən Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinin "Əczaçılıq texnologiyası və idarəçiliyi" kafedrasında mühazirələr işlənib hazılanmışdır və magistratura pilləsində oxuyan tələbələr üçün "Əczaçılığın bioetikası", "Müasir əczaçılığın problemləri" fənnlərinin tədrisinə daxil edil-

mişdir. Bunlara aiddir: "Xəstələrlə ünsiyyətdə psixoloji stabilliyin formalaşdırılması", "Psixi özünütənzimləmə vərdişləri", "Stressə qarşı davamlılığın yüksəldilməsi", "Müasir əczaçılıq valeologiyası", "Əczaçılıq bioetikasının mütəxəssislərə faydası". Həmin mühazirələrə metodiki işləmələr hazırlanmışdır və tətbiq üçün aktlaşdırılmışdır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işinin müxtəlif fraqmentləri Azərbaycan Respublikasında keçirilən Bakı Elm festıvalında (Bakı, 2015, 2016), İstanbulda keçirilən "İVEK2" Uluslararası ilaç və eczaçılık kongresində(İstanbul, 2015), "Актуальные вопросы современной фармацевтической технологии" Всероссийской научно-практической конференции с международным участием посвященной памяти выдающегося ученого, заслуженного деятеля науки РСФСР, доктора фармацевтических наук, профессора И.А. Муравьева (Пятигорск, 2016), "Актуальные вопросы современной фармацевтической технологии" Всероссийской научно-практической конференции с международным участием посвященной памяти выдающегося ученого, заслуженного деятелья науки РСФСР, доктора фармацевтических наук, профессора Д.А. Муравьевой (Пятигорск, 2017), Международная научно- практическая конференция «Современная технологическая платформа в создании лекарственных форм, космецевтических средств и БАД» (Пятигорск, 2018), "Doktorantların və gənc tədqiqatçıların XXIII Respublika elmi konfransında" (Bakı, 2018), Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasında keçirilən elmi konfransda (Bakı, 26 oktyabr, 2018), II International Conference on Global Practice of Multidisciplinary Scientific Studies (Batumi, 2022), Научно-практическая конференция ГОУ «ТГМУ им. Абуали ибни Сино» «Современная медицина: традиции и инновации» с международным участием (Душанбе, 2022) məruzə və müzakirə olunmuşdur.

**Publikasiyalar:** Dissertasiya mövzusu üzrə 22 elmi əsər dərc edilmişdir. Bunlardan 11-i elmi məqalə (6-sı xaricdə, 5-i respublikada), 11-i tezis (3-ü xaricdə, 8-i respublikada çap etdirilmişdir).

**Dissertasiya işinin həcmi və strukturu.** Dissertsiya işi 189 kompyuter çap vərəqində şərh edilmişdir: 16 cədvəl, 17 şəkildən ibarətdir. Tədqiqat işi giriş, altı fəsil, xülasə, nəticələr, praktik

tövsiyyələrdən, ədəbiyyat siyahısından, əlavələrdən və ixtisarlardan ibarətdir. Biblioqrafik göstəriciyə 172 mənbə daxil edilmişdir.

Dissertasiya işinin giriş hissəsi – 11286 işarədən, I fəsil - 50760 işarədən, II fəsil -15732 işarədən, III fəsil -17913 işarədən, IV fəsil – 42355 işarədən, V fəsil -21168 işarədən, VI fəsil – 65677 işarədən, ümumi olaraq 337376 işarədən ibarətdir. Dissertasiya işi Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasında aparılan elmi işin istiqamətinə müvafiqdir. (Dövlət qeydiyyat № 01114105)

## İŞİN MƏZMUNU

### Tədqiqatın material və metodları

Dissertasiya işi Azərbaycan Tibb Univrsitetinin əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasında 2015-2018-ci illərdə yerinə yetirilmişdir. Tədqiqatlar Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinin tələbələri, Azərbaycan Dövlət Aqrar Universitetinin Əczaçılıq və BSE fakültəsinin tələbələri, Bakı 1 saylı Tibb kollecinin Əczaçılıq şöbəsinin tələbələri, 2 №-li Bakı Baza Tibb kollecinin Əczaçılıq şöbəsinin tələbələri(cəmi 425 tələbə),” Zeytun Pharmaceutical” şirkətinin tabeçiliyində olan apteklərdə çalışan ali və orta təhsilli əczaçılar və “Avromed” komponi-nin nəzdində fəaliyyət göstərən “DOKTA” MMC-nin tabeçiliyindəki apteklərdə çalışan ali və orta təhsilli əczaçıları (cəmi 500) əhatə edir. Tədqiqatlar müxtəlif variantda tərtib olunmuş, bir neçə sualdan ibarət sorğu anketləri vasitəsilə aparılmışdır ki, onların da nəticələri müasir kompyüter proqramlardan istifadə etməklə statistik olaraq işlənilmişdir.

**Tədqiqatın materialı:** tədqiqatın obyekti Azərbaycan Respublikası əczaçılıq bazarının kadrlarının hazılanması və istifadə edilməsi sahəsində fəaliyyətdə olan məvcüd sistem; informasiya mənbələri Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin statistik hesabatları; Azərbaycan Tibb Universitetinin hesabat sənədləri; Azərbaycan Dövlət Aqrar Universitetinin hesabat sənədləri; 1 və 2 saylı Bakı Tibb Kolleclərinin, eləcə də dissertasiya tədqiqatının özünün empirik bazası; əczaçı mütəxəssislər, əczaçılıq fakültəsinin tələbələrinin sorğu anketləri olmuşdur. Anket sorğuları 2016-2018-ci illərdə aparılmışdır(cəmi 925 anket).

**Tədqiqatın metodları:** metodoloji olaraq ölkəmizdə əczaçılıq bazarının öyrənilməsinə sistem yanaşma nəzəriyyəsi prinsipi, qərarların qəbul edilməsi ümumi prinsipi, statistika nəzəriyyəsi, müqayisə, sosioloji (sorğu, anketləşmə, testlərin aparılması, müsahibə), sənədli analiz, modelləşdirmə ilə əczaçı mütəxəssisin hazırlanması sahəsində Azərbaycan və xarici alimlərin işləri istifadə edilmişdir. Elmi-əsaslı tədqiqatlar Azərbaycan Respublikasının ali və orta təhsil bazalarında və fəaliyyətdə olan əczaçılıq müəssisələrində aparılmışdır.

### 2.3. Tədqiqatin alqoritminin işlənilməsi.

Əczaçı mütəxəssislərin ixtisas hazırlıq məsələsinə fərdi olaraq diqqət yetirilmişdir. Bu vacib məsələni nəzərə alıb ölkəmizdə mütəxəssis xidməti vəziyyətinin öyrənilməsi və fəaliyyətdə olan modellərin optimallaşdırılması üzrə əvvəllər işlənib hazırlanmış metodik yanaşmalar nəzərə alınmaqla, mütəxəssislərin hazırlanmasından başlayaraq, onların əczaçılıq xidməti və bütün fəaliyyəti boyunca peşə baxımdan təşəkkül tapmasına, insan resursları qismində səmərəli istifadə edilməsi məsələsinə qədər ölkə çərçivəsində mütəxəssis siyasəti məsələsi üzrə dissertasiyanın elmi tədqiqatının alqoritmi işlənib hazırlanmışdır.

**Tədqiqatın alqoritmi**

| Tədqiqatın mərhələləri | Tədqiqatın mərhələlərinin tərkibi | İnformasiya mənbəyi |
| --- | --- | --- |

| | | |
|---|---|---|
| **I MƏRHƏLƏ Əczaçılıq sektorunun strateji inkişafinda innovativ siyasətin təhlili** | 1.1 Əczaçılıq müəssisələrində mütəxəssisin idarə edilməsinin ənənəvi metodlarının xüsusiyyətləri<br>1.2. Əczaçılıq təşkilatlarında mütəxəssislərin idarə edilməsi sistemində innovasiya dəyişiklikləri.<br>1.3. Müasir azərbaycan əczaçılığının innovativ siyasətinin bəzi aspektləri.<br>1.4. Ölkəmizdə əczaçılığın idarə olunmasında innovativ yanaşmaların formalaşması<br>1.5. Əczaçı mütəxəssislərin peşə-şəxsiyyət hazırlığı.<br>1.6. Əczaçılıq elmində innovasion siyasətin formalaşması öyrənilmişdir. | Ədəbiyyat məlumatları<br>Analitik hesabatlar<br>Internet-resurslar<br>Azərbaycan Respublikası Təhsil Nazirliyinin məlumatları |
| **II MƏRHƏLƏ Azərbaycan əczaçılıq bazarında əczaçı mütəxəssislərin idarə edilməsinin təhlili** | 2.3. Əczaçı mütəxəssislərin peşə fəaliyyətində emosional sönmə probleminin təhlili.<br>2.4. Əczaçı mütəxəssislərin stressə davamlılığının və işdə peşə sönmə sindromunun öyrənilməsi. | Bu vəzifəni həll etmək üçün əldə etdiyimiz ədəbiyyatlardan istifadə etməklə nəzəri olaraq məlumatlar əldə edilmişdir |
| **III MƏRHƏLƏ Əczaçı mütəxəssislərin təhsil aldığı dövrdə peşəkar və şəxsiyyət formalaşmasının sistemli təhlili** | 3.1. Ölkəmizdə əczaçılıq təhsilinin innovativ inkişafının öyrənilməsi.<br>3.2. Azərbaycanda əczaçı mütəxəssislərin hazırlığı sisteminin təhlili.<br>3.3. Ölkəmizin ali və orta əczaçılıq təhsili müəssisələrində tələbələrin peşəkar və şəxsiyyət kimi hazırlığı səviyyəsinin öyrənilməsi | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin statistik hesabatlarının göstəriciləri<br>Ali əczaçılıq məktəblərin və kolleclərin tələblərinin anketləri |

| | | |
|---|---|---|
| **IV MƏRHƏLƏ Azərbaycanda əczaçı mütəxəssislərin innovativ ixtisasalma mərhələsində təşəkkülü prosesinin təhlili** | 4.1.Azərbaycanda əczaçı mütəxəssislərin idarəçilik fəaliyyətinin öyrənilməsi.<br>4.2.Ölkəmizdə əczaçı mütəxəssislərin fəaliyyətinin inkişafında peşə səriştəliliyin formalaşması şərtlərinin öyrənilməsi. | Əczaçı-rəhbər və işçilərin anketləri Internet-resurslar |
| **V MƏRHƏLƏ Ölkəmizin əczaçılıq bazarında ali ixtisaslı mütəxəssislərin təşəkkül modelinin işlənib hazırlanması** | 5.1.Azərbaycanda müasir şəraitdə əczaçı mütəxəssisin peşə təcrübəsinin əldə edilməsi qabiliyyətinin öyrənilməsi.<br>5.2. Dövlətimizin hazırladığı əczaçı mütəxəssislərin idarəçilik qabiliyyətinə xarici modelinin tətbiqi yollarının öyrənilməsi<br>5.3.Ölkəmizdə əczaçı mütəxəssislərin əczaçılıq bazarının yeniliklərini qəbul etmək qabiliyyətinin təhlili<br>5.4.Azərbaycanda əczaçılıq fəaliyyəti ilə məşqul olan mütəxəssislərin sağlamlıq durumunun formalaşdırılması, mühafizəsi və möhkəmləndirilməsinə yönəlmiş tədbirlərin qiymətləndirilməsi<br>5.5. Azərbaycan əczaçılıq cəmiyyətlərinin formalaşması və əczaçılıq sektorunda rolunun öyrənilməsi. | Ictimai əczaçılıq cəmiyyətlərinin yaradılmasında xarici və vətən təcrübəsinin təhlilinin göstəriciləri Internet-resurslar |

Təqdim edilən sxemə uyğun olaraq tədqiqatın əsas mərhələləri və onların aparılmasının ardıcıllığı müəyyən edilmişdir.

Birinci mərhələdə ədəbiyyat mənbələri, Azərbaycan Respublikasında əczaçılıq bazarında müasir mütəxəssisin idarə edilməsi probleminin təhlili, əczaçılıq müəssisələrində mütəxəssisin idarə edilməsinin ənənəvi metodlarının xüsusiyyətləri, əczaçılıq təşkilatlarında mütəxəssislərin idarə edilməsi sistemində innovasiya dəyişiklikləri, əczaçı mütəxəssislərin peşə-şəxsiyyət hazırlığı, əczaçı mütəxəssislərin peşə fəaliyyətində emosional sönmə problemi yaranmasının öyrənilməsi olmuşdur.

İkinci mərhələdə Azərbaycanın əczaçı mütəxəssislərinin hazırlıq sistemi və onların ölkəmizdə istifadəsi üzrə normativ-hüquqi sənədlərinin və analitik hesabatlarının göstəriciləri təhlil edilmişdir. Həmin təhlilin əsas məsələləri bunlar olmuşdur: əczaçı mütəxəssislərin peşə hazırlığının xüsusiyyətlərinin təhlili, Azərbaycan Tibb Universitetində, Azərbaycan Dövlət Aqrar Universitetində, 1 və 2 saylı Bakı Tibb Kolleclərində əczaçı mütəxəssislərin hazırlanması, ölkəmizdə tətbiq edilən mövcud idarəçilik modellərinin xüsusiyyətlərinin təhlili, əczaçı mütəxəssislərin fəaliyyətinin xüsusiyyəti və metodlarının öyrənilməsi.

Üçüncü mərhələnin məqsədi Azərbaycan Respublikasında əczaçılıq təhsili ilə mütəxəssislərin hazırlanması sisteminin kompleks öyrənilməsindən ibarətdir. Buraya daxildir: təhsil müəssisəsindən asılı olaraq psixoloji testlərin köməkliyi ilə mütəxəssislərin peşə-şəxsiyyət baxımından təşəkkül tapması; ali məktəbin seçilməsinə yardım edən motivasiya faktorlarının təhlil edilməsi; təhsil alanların psixoloji xüsusiyyətlərinin və onların şəxsiyyət xarakteristikalarının öyrənilməsi.

Dördüncü mərhələdə Azərbaycan Respublikasının əczaçılıq təşkilatlarında mütəxəssislərin yerləşdirilməsinin öyrənilməsindən alınan nəticələrin ümumiləşdirilməsi aparılmışdır. Bunların əsasında ölkəmizdə əczaçılıq xidmətində əmək resurslarının effektivliyinin artrılması yolları işlənib hazırlanmışdır.

Beşinci mərhələ əczaçı işçilərin mütəxəssis kimi təşəkkül tapmasında ictimai əczaçılıq cəmiyyətinin rolu haqqında yerli və xarici informasiya mənbələrinin təhlilinin aparılmasına həsr edilmişdir. Əldə edilən təcrübənin ümumiləşdirilməsi nəticəsində respublika səviyyəsində əczaçılıq sahəsində mütəxəssislərin təşəkkül tapması sisteminin modeli təklif edilmişdir, bu model yalnız praktik fəaliyyətdə əldə edilməsi mümkün olan yeni peşə keyfiyyətlərin əldə edilməsinə yönəldilmişdir.

Əvvəlcə əczaçılıq üzrə orta təhsil alan tələbələrin sosial sorğusu (anketləşdirmə metodu ilə) aparılmışdır. Sorğunun məqsədi həmin tələbələrdə ali əczaçılıq təhsilinin alınması üçün ali məktəblərdə təhsilini davam etdirmək motivasiyasını aşkar etməkdən ibarət olmuşdur. Sorğuda 2016 və 2018-ci illərin 110 məzunu iştirak

etmişdir. Anketdə idarəçilik mövzusu üzrə suallar olmuşdur, təhsilə aid olan blok da daxil edilmişdir.

Tədqiqatımızın növbəti mərhələsində ölkəmizdə ali məktəb tələbələrinin ixtisas seçiminin motivasiya xüsusiyyətləri öyrənilmişdir, bunun üçün ATU- nun 50 məzunu və ADAU-un 10 məzunu anket sorğusunda iştirak etmişdir (2017-cı il).

2016 - 2018-ci illərdə ATU və ADAU bazasında əczaçılıq profili üzrə ali təhsil, tibb kolleclərində orta ixtisas təhsili alan tələbələrin özünütəyin etməsinin xüsusiyyətləri eksperimental şəkildə öyrənilmişdir. Tədqiqatda 230 tələbə iştirak etmişdir. Onlardan 100 nəfəri ATU, 80 nəfəri ADAU və 50 nəfəri tibb kollecinin əczaçılıq fakültəsinin tələbələri olmuşdur.

Eksperimental seçimələrin tərkibini xarakterizə etdikdə qeyd etməliyik ki, həmin təhsil müəssisələrinin bu tələbələri əsas etibarilə təbiət elmələri, tibbi-biologiya və bir qədər iqtisadi yönümlü elmələr üzrə təhsilə meyillidirlər. Sorğuya ATU və ADAU-da 3-cü və 4-cü kurs tələbələri, tibb kollecinin 2-ci və 3-cü kurs tələbələri cəlb edilmişdir. Seçimin tərkibi cinsi tərkibinə görə bərabər olmuşdur. ATU-da əczaçılıq ixtisası daha çox oğlanları cəlb etmişdir, nəinki ADAU-da. Tibb kolleclərinin əczaçılıq fakültələrində oğlanlar çox azdır. Əldə edilən işçi bölgüsü qeyd edilən müəssisəsələrin tələbə kontingenti üşün səciyyəvi hal olmuşdur.

Tədqiqatın eksperimental mərhələsi əczaçılıq istiqamətində təhsil alan mütəxəssislərin peşə hazırlığına həsr edilmişdir.

Əczaçılıq profili üzrə tələbənin mütəxəssis-şəxsiyyət təşəkkülünün xüsusiyyətlərinin təhlili ATU, ADAU və tibb kollecinin əczaçılıq fakültəsinin tələbələrinin peşə və şəxsiyyət xarakteristikalarının müqayisəsinə həsr edilərək şərhçilik mərhələsi çərçivəsində aparılmışdır.

Tələbələrin mütəxəssis-şəxsiyyət xüsusiyyətlərinin müqayisəli xarakteristikası aşağıdakı parametrlər üzrə aparılmışdır: ixtisas seçiminin motivasiya xüsusiyyətləri; şəxsiyyət resurslarının ilkin səviyyəsi; şəxsiyyət və mütəxəssis istiqaməti; peşə, maraqlar və təsəvvürlər; emosional-iradı sferanın xarakteristikası; səxsiyyətin kommunikativ xassələri.

## Hesablamaların aparılması üsulları

Daha sonra aptek təşkilatlarının işçiləri arasında sosial sorğular aparılmışdır. Göstərici nəticələrinin alınması üçün sosial tədqiqatların gedişatında təsadüfi təkrarsız seçimlər aparılmışdır. Rəyi soruşulanlar arasında lazımi sayının hesablanması üçün əczaçılıq iqtisadiyyatında istifadə olunan düsturdan istifadə edilmişdir[7,8]:

$$n = \frac{1}{\frac{\Delta}{p(1-p)\times t^2} + \frac{1}{no}}$$

**burada**: **n** – sorğunun aparılması üçün şəxslərin sayı;

**$n_0$** – ümumi toplunun sayı (mütəxəssis və əczaçıların sayı);

**t** – etibarlıllıq əmsalı (həddin səviyyəsi = 0,05 olduqda) 1,96 olaraq müəyyən edilir;

**p (1-p)** – seçimli dispersiya (0,2-təşkil edir);

Δ – seçimin xəta həddi (etibarlılıq həddi adətən 95%-ə bərabər götürülür və 5%-dən çox olduqda 0,05 hesab edilir).

Azərbaycanda işləyən ali əczaçı və əczaçıların sayına əsasən sorğu edilməli şəxslərin sayı yuxarıdakı formul üzrə hesbalanmalıdır:

### Statistik hesablama

Statistik araşdırmalar MS EXEL, SPSS və S-PLUS proqramlarından istifadə etməklə, moda və medianın hesablanması aşağıdakı düsturlardan istifadə etməklə aparılmışdır.

$$M_0 = x_0 + n\frac{f_m - f_{m-1}}{(f_m - f_{m-1}) + (f_m - f_{m+1})};$$

$M_0$ - moda dəyəri

[7] Остапенко Ю.М. Экономика труда: учеб. пособие / Ю.М. Остапенко. - М.: Инфра-М, 2007. - с. 272.

[8] Васильев С.В. Сравнительный менеджмент: учеб.-метод. пособие / С.В. Васильев. - Великий Новгород: Изд-во НовГУ им. Ярослава Мудрого, 2012. - 159 с.

$X_0$ - moda intervalın aşağı həddi
n - interval dəyəri
$f_m$ - moda intervalın tezliyi
$f_{m-1}$ - modadan əvvəlki intervalın tezliyi
$f_{m+1}$ - modadan sonrakı intervalın tezliyi

$$M_e = x_0 + h\frac{\frac{\sum f_i}{2} - S_{m-1}}{f_m},$$

$M_e$ - istənilən median
$x_0$ - medianı olan intervalın aşağı sərhəddi
h - interval dəyəri
$\sum f_i$ - tezliklərin cəmi və ya median üzvlərinin sayı
$S_{m-1}$ - mediadan əvvəlki intervalların yığılmış tezliklərinin məbləği
$f_m$ - median intervalın tezliyi

## TƏDQİQATIN YEKUNLARI VƏ ONLARIN MÜZAKİRƏSİ

**Azərbaycan əczaçılıq bazarında əczaçı kadrların idarə edilməsinin təhlili.** Əczaçılıq müəssisələrində mütəxəssisin idarə edilməsinin ənənəvi metodlarının xüsusiyyətləri, əczaçılıq təşkilatlarında kadrların idarə edilməsi sistemində innovasiya dəyişiklikləri, əczaçı kadrların peşə-şəxsiyyət hazırlığı, əczaçı mütəxəssislərin peşə fəaliyyətində emosional sönmə problemi öyrənilmişdir.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, ölkəmizin əczaçılıq sahəsində 5747 nəfər əczaçı çalışır, onlardan 52%-i ali təhsilli mütəxəssislər, 48%-i isə orta təhsilli mütəxəssislərdir. Əczaçılar arasında aparılan sosioloji tədqiqatlardan orta statistik göstəriciləri hazırlamaq mümkün olmuşdur. Respublikada xəstəxana və iri apteklərdə də ali təhsilli mütəxəssislər üstünlük təşkil etmişdir. Şəhər özəl apteklərində əsasən ATU-nun və tibb kollecinin əczaçılıq fakultəsinin tələbə - məzunları çalışırlar. Bunlar əsasən orta

yaş həddi 40 olan gənc qadınlardır. Bütün karyera boyunca peşə səriştəliliyin inkişaf etdirilməsi şəraiti öyrənildikdə əczaçı mütəxəssislər arasında informasiya boşluqlarının olduqları aşkar edilmişdir. Aptek müdirlərinin əczaçılıq menecmenti, əczaçılıq marketinqi, sahibkarlığın hüquqi əsasları, əczaçılıq sahibkarlığının iqtisadı əsasları haqqında əlavə biliklərə tələbatı vardır (şəkil 1).




**Şəkil 1. Aptek müdirlərinin əlavə biliklərə olan tələbatı**

Dərman preparatlarının ekstemporal hazırlanması və inkişaf etdirilməsinin gələcək vəziyyəti üzrə sorğularından məlum olmuşdur ki, respublika üzrə əczaçı mütəxəssislərin dərman preparatlarının hazırlanmasında və genişləndirilməsində ekstemporal istehsalatda fəaliyyəti yaxud istəyi yox dərəcəsindədir. Əczaçı mütəxəssislərin işinə təsir göstərən stressogen faktorlar müəyyən edildikdə aşkar edilmişdir ki, "professional sönmə sindromu" daha çox güzəştli əhaliyə dərman preparatlarının təminatı ilə məşğul olan şəxslərdə 35% və digər mütəxəssislərdə isə nisbətən az, 32% olmuşdur.

Yuxarı kurs tələbələrinin (34 tələbə) sorğusundan məlum olmuşdur ki, yalnız 18 tələbə öz ixtisasının reallıqları və onun

yüksək stressogenliyi haqqında biliklərə malikdirlər. Bu onu göstərir ki, tələbələrdə stressə davamlılıq keyfiyyətlərinin formalaşdırılması üzrə tədris proqramının işlənib hazırlanmasına tələbat vardır. Mütəxəssislər ilə professional sönmənin aradan qaldırlması üzrə profilaktik tədbirlər aparılmalıdır.

**Azərbaycanda əczaçı kadrların təhsil aldığı dövrdə peşəkar və şəxsiyyət kimi formalaşmasının təhlili.** Azərbaycan Respublikasında əczaçı kadrların hazırlığı sisteminin təhlili, əczaçılıq təhsil müəssisələrində tələbələrin peşə və şəxsiyyət hazırlığının diaqnostikası öyrənilmişdir. Əczaçılıq kadrları üzrə xidmətin və aktual modellərin vəziyyətinin öyrənilməsinə dair mövcud olan metodik yanaşma nəzərə alınmaqla əczaçılıq xidmətinin insan resurslarının səmərəli istifadə edilməsi istiqamətində əczaçı kadrların hazırlanması və əczaçı mütəxəssisin idarə edilməsi üçün tədqiqatlar proqramı işlənib hazırlanmışdır. Kadrların hazırlanma sistemi təhlil edilmiş və müəyyən edilmişdir ki, ali təhsilli kadrların hazırlığı ilə Azərbaycan Tibb Universitetinin və Azərbaycan Dövlət Aqrar Universitetinin Əczaçılıq fakultələri məşğul olurlar. Orta thsilli əczaçı mütəxəssislər 1saylı Bakı Tibb kolleci və 2 №-li Bakı Baza Tibb kolleclərində orta ixtisas təhsili alırlar. Əczaçı kadrların ali məktəbdə və kolleclərdə hazırlıq mərhələsində professional-şəxsiyyət təşəkkülünü qiymətləndirməyə imkan verən psixoloji test paketlərindən istifadə edilməklə müəyyən edilmişdir ki, əczaçılıq sahəsində mütəxəssisin təşəkkülü sosial mühitin, həyat ritminin, fəaliyyət növünün, gənclərin həyat dəyərlərinin dəyişməsi fonunda baş verir. Ali məktəb tələbələri və Tibb kolleclərinin əczaçılıq fakultəsinin tələbələrinin əczaçılıq sahəsində peşə-şəxiyyət baxımından təşəkkülünün məzmun fərqləri vardır. Belə ki, tələbələr əczaçı ixtisasını seçməkdə daha çox valideyinlərinin və qohumlarının təsiri altında öz seçimlərini edirlər (şəkil 2,3).




**Şəkil 2. ATU-da əczaçılıq ixtisasının seçim faktorları üzrə tələblərin paylaşdırılması**




**Şəkil 3. ADAU-da əczaçılıq ixtisasının seçim faktorları üzrə tələblərin paylaşdırılması**

Öyrənilmişdir ki, ali təhsil ocaqlarında təhsil mühitinin formalaşması gələcək əczaçı mütəxəssislərin peşə fəaliyyətinə təsir göstərib, dərmanların ticarəti və ya istehsalatına bağlılığını müəyyənləşdirmişdir. Kreativlik və dəyərlər oriyentasiyası şkalası üzrə tələbələr öz seçimlərini düzgün etmişlər, onlar özlərini bu ixtisasa bağlayaraq insanlara yardım etməyi seçmişlər. Tibb kolleclərinin əczaçılıq fakultəsinin tələbələrində əczaçılar üçün zəruri olan iradə, özünə nəzarət, inadkarlıq, özünü tənzimləmə, insanlarla təmasda olmağa meyillilik kimi keyfiyyətlərin aşağı olduğu aşkar edilmişdir ki, bu da onların sahibkarlıq və ya elmi fəaliyyətlərinə maneələr törədəcəyini göstərir. ATU tələbələri həm emosional-psixoloji vəziyyətlər, həm də mənfi hadisələr üzərində subyektiv nəzarət səviyyəsinə görə daha yüksək göstəricilərə malik olmuşlar. Aşkarlanmışdır ki, ATU-nun Əczaçılıq fakültəsinin tələbələri əczaçılıq biznesində, pedaqoji fəaliyyətdə, əczaçılıq elmində daha yüksək imkanlara malik olmuşlar.

**Azərbaycanda əczaçı kadrların innovativ ixtisasalma mərhələsində təşəkkülü prosesinin təhlili.** Azərbaycan Respublikasında əczaçı mütəxəssisin idarəçilik sisteminin struktur təhlili, əczaçı mütəxəssisin karyerasının gedişatında peşə səriştəliliyin formalaşması şərtlərinin öyrənilməsi, əczaçı mütəxəssislərin stressə davamlılığının və işdə peşə sönmə sindromu öyrənilmişdir. Aşkarlanmışdır ki, bizim ölkəmizdə əczaçılıq təşkilatlarında əczaçı mütəxəssisin seçilməsi, işgüzarlığın qiymətləndirilməsi, karyera etmək, adaptasiya və işçilərin motivasiyası, münaqişələrin idarə edilməsi ilə əlaqədar olaraq əczaçı mütəxəssisin idarə edilməsinin əsas müddəaları, prinsipləri, metod və texnologiyaları heç də yüksək səviyyədə işlənib hazırlanmamışdır. Bununla yanaşı olaraq, əczaçı kadrların idarə edilməsinin praktik işində müasir tələbləri və aptek mütəxəssisinın idarə edilməsinin incəliklərini yadda saxlamaq lazımdır ki, bunlar da sıx şəkildə kadr proseslərinin və dərman preparatlarının dövriyyəsi sferasındakı münasibətlərin əsas tendensiya və qanunauyğunluqları ilə şərtlənir və onlarla qarşılıqlı təsirdə olur. Hazırda Azərbaycanda əczaçı

işçilərin baza hazırlığı ali və orta əczaçılıq tədris müəssisələri tərəfindən həyata keçirilir, ona görə də əczaçılıq təhsilinə əczaçı kadraların hazırlanması kimi ümumi şəkildə yenidən baxılmalıdır. Müasir əczaçılıq təhsil müəssisələri ənənəvi biliklərlə yanaşı sahibkarlığa meyilli olan biliklərə də üstünlük verir, lakin əczaçılıq bazarına iqtisadi düşüncələri daha mükəmməl olan mütəxəssislər tələb olunur ki, onlar kliniki farmakologiya, farmako-iqtisadiyyat, dərman preparatlarının qarşılıqlı əvəz edilməsi və uyğunlaşmasınıda yaxşı bilməlidirlər. Bununla əlaqədar olaraq yeni təhsil standartlarının qəbulunda orta və ali əczaçılıq təhsilinin innovativ dəyişikliklərə uyğun olaraq yaranması tələb olunur. Müasir dövürdə orta və ali əczaçılıq təhsil müəssisələrinin konsolidasiyası isə əczaçılıq təhsilində aparılan innovativ islahatların baza şərti hesab edilir. Müəyyən edilmişdir ki, əczaçılıqla məşğul olan şəxsiyyətin hazırlanması, şəxsiyyətə çoxsaylı sosial təsirli tədbirlərin istifadə edilməsini tələb edir. Buraya professional baxımdan zəruri olan keyfiyyətlərin formalaşdırılması məqsədilə müxtəlif növ fəaliyyət sahələri aiddir ki, bu fəaliyyət bir neçə mərhələdən keçir: hazırlıq mərhələsi, adaptasiya mərhələsi, kamilləşmə və peşə aktivliyin azalması. Baxmayaraq ki, bir tərəfdən əczaçılıq təşkilatlarının səhiyyə təşkilatı kimi statusu qanuni şəkildə təşəkkül tapmışdır, digər tərəfdən aptek təşkilatları kommersiya müəssisələridir, marketlərdə, internet mağazalarda və xüsusi terminallarda (vendinq aparatları) dərman prepartlarının reseptsiz satılması üçün zəmin yaradır. Bunlar əczaçılıq biznesi və əczaçılıq təşkilatlarının idarəçilik sistemində yenidənqurmalar üçün innovasiya yenilikləri kimi nəzərdən keçirilə bilər. Aşkar edilmişdir ki, işçi stressi professioanl fəaliyyətdə işçinin emosional sönməsinə gətirib çıxarır, bunlara aptek təşkilatlarında çalışan əməkdaşlar da aiddir. Müasir aptek təşkilatlarında çalışan işçi XX sərin 80-90-cı illərin işçilərinə nisbətən daha böyük yüklənmələrə məruz qalırlar. Bununla əlaqadar olaraq əczaçılıq təşkilatlarında çalışan işçilərdə işçi stressinin öyrənilməsi və professional sönmənin profilaktikası problemi yetişərək qarşıda durmaqdadır.

**Ölkəmizin əczaçılıq bazarında yüksək ixtisaslı mütəxəssislərin innovativ təşəkkül modelinin işlənib hazırlanması.**

Əczaçılıq bazarının inkişaf xüsusiyyətləri nəzərə alınmaqla əczaçılıq sahəsində mütəxəssislərin təşəkkülü modelinin ilk dəfə işlənib hazırlanması, o cümlədən müasir şəraitdə əczaçı işçilərin peşə təcrübəsinin əldə edilməsi qabiliyyətinin öyrənilməsi, mütəxəssisin idarəçiliyinin xarici modelinə əczaçı mütəxəssisin münasibətinin tədqiq edilməsi, əczaçı mütəxəssislərin əczaçılıq bazarının yeniliklərini qəbul etmək qabiliyyətinin təhlili, əczaçılıq sahəsində fəaliyyət göstərən mütəxəssislərin həm fərdi, həm də ictimai sağlamlığın formalaşdırılması, mühafizəsi və möhkəmləndirilməsinə yönəlmiş olduğunun qiymətləndirilməsi, əczaçı mütəxəssislərin peşə baxımdan təşəkkülündə ictimai əczaçılıq ittifaqlarının roluna yenidən baxılması imkanlarının öyrənilməsi kimi problemlər və onların həllindən bəhs edir, ardıcıl olaraq elmi-əsaslı öyrənilib və sübuta yetirilib ki, son zamanlar əczaçı kadrların professional təşəkkülü dövlət və sahəvi sənədlərdəki, normativ aktlardakı tələblərə əsaslanan hissəsindən başqa şirkətdaxili təhsil şəkilində əczaçı kadrların hazırlıq və təhsilinin formalaşdırılması xüsusi yer tutur. Aptek müdirlərinin sosioloji sorğularından məlum olmuşdur ki, mütəxəssisin idarə edilməsi Azərbaycan mentalitetinə uyğun aparılır. Bundan başqa, dərman preparatlarının buraxılışında beynəlxalq təcrübənin mənimsənilməsini, ölkəmizdəki əczaçılıq bazarının xüsusiyyətlərini nəzərə alaraq, qüvvədə olan qanunvericiliyə müvafiq şəkildə aparmaq lazımdır. Bununla yanaşı olaraq əczaçı personalda əczaçılıq sahəsində yeniliklərin tətbiq edilməsinə hazır olmaları aşkar edilmişdir. Eyni zamanda əczaçı mütəxəssisdə özünün səhiyyə sistemində əhalinin sağlamlığının qorunması məsələsinin həll edilməsində yerini və rolunu, apteklərin sosial funksiyasının zəruriliyini tam anladığı və xəstənin maraqlarının təşkilatın kommersiya maraqlarından üstün olduğu aşkar edilmişdir. Ali və orta təhsilli əczaçı tələbələr arasında əhalinin sağlamlığının inkişafı və qorunması haqqında biliklərin tətbiq edilməsi və konkretləşdirilməsi üzrə maarifləndirici işlərin təşkilində əczaçılıq təşkilatlarının rolu göstərilmişdir. Emosional sönmə sindromunun profilaktikası və əczaçı mütəxəssisə psixoloji dəstəyin göstərilməsi üçün təkliflər edilmişdir. Aşkar edilmişdir ki, bütünlükdə əczaçılıq

fəaliyyəti üzrə normativ-hüquqi bazanın aktuallaşdırılması, təhsil və peşə standartların korrektə edilməsində əczaçılıq ictimai təşkilatları yaradılsa rolu böyük olar. Əczaçıların peşə təşəkkülündə ictimai əczaçılıq təşkilatlarının rolu haqqında informasiyanın təhlili aparılan zaman Azərbaycan Əczaçılıq Elmi Cəmiyyətinin mütəxəssisin formalaşmasında xüsusi rolu, ixtisasının artırılması prosesinin genişlənməsində təşkilat və mütəxəssislərin tələbatı aşkar edilmişdir. Bu proseslər yeni professional keyfiyyətlərin qazanılmasına yönəlmişdir. Əczaçılar bu bilikləri yalnız praktik fəaliyyətdə əldə edə bilərlər. Beynəlxalq Əczaçılıq Federasiyasının tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasında yeni yarana biləcək Əczaçılıq Assossiasiyasının fəaliyyətinin əsas istiqamətləri müəyyən edilmişdir. Xarici və vətən əczaçılıq ictimai təşkilatlarının təcrübəsinin ümumiləşdirilməsi üzrə müasir əczaçı mütəxəssisin peşə-təşəkkül sisteminin innovativ modeli işlənib hazırlanmışdır (şəkil 4). Bu model iki yarımsistemə ayrılmışdır: peşə təşəkkülün 3 institusional komponentidən ibarət idarəedici I yarımsistemi - ali məktəblər və kolleclər, əczaçılıq şirkətləri, əczaçılıq ictimai birlikləri. İdarə olunan II yarımsistem - bunlar tədris edilən kontingent toplusudur: əczaçılıq fəaliyyəti ilə məşğul olan tələbə və əczaçı mütəxəssislər.




**Şəkil 4. Əczaçı mütəxəssisin innovativ təşəkkül modeli**

## NƏTİCƏLƏR

1. Əldə etdiyimiz elmi ədəbiyyatların təhlili əsasında əczaçı mütəxəssislərin formalaşması və müasir dövrümüzə uyğun təkmilləşməsi yolları öyrənildi. Əczaçı mütəxəssislərin peşə fəaliyyətində emosional sönmə problemi aşkarlandı. Xarici ölkələrin elmi-əsaslı araşdırmaları əsasında stres ilə emosional sönmə problemlərinin əlamətlərinin fərqli və oxşar cəhətləri sistemləşdirildi və göstərildi ki, hər iki mənfi təsirlərin aradan qaldırılması müasir dövrdə ən vacib məsələdir. Azərbaycanda əczaçı mütəxəssislərdə stressə davamlılığın və işdə peşə sönmə sindromunun olması öyrənilmişdir. Bu məqsədlə müxtəlif bölgələrdən olmaqla apteklərdə sorğu tədqiqatları aparılmışdır. Əczaçı mütəxəssisin işinə təsir göstərən, stress yaradan faktorlar müəyyən edilərək sübut olunmuşdur ki, "peşə sönmə sindromu" güzəştli əhaliyə dərman satışı ilə məşğul olan şəxslərdə daha çox olmuşdur. Əczaçı mütəxəssislərin stressə davamlığının və işdə peşə sönmə sindromunun təhlili aşkar etdi ki, əhaliyə dərmanların verilməsi ilə məşğul olanlarda – 32%, güzəştli şəxslərin təmini ilə məşğul olanlarda - 35%, predmet-hesab uçotu ilə məşğul olanlarda - 33% peşə sönmə sindromunun olması rast gəlinir.
2. Ölkəmizin əczaçılıq bazarında 5747 nəfər əczaçı çalışır,onlardan 52%-i ali, 48%-i isə orta təhsilli mütəxəssislərdir. Əczaçı mütəxəssislərin idarə edilməsi öyrənildi və sübut olundu ki, müasir azərbaycan əczaçılığının innovativ siyasəti formalaşıb: normativ-hüquqi baza yaradılıb, idarəetmə sistemi mərkəzləşib, yeni səmərəli və əlverişli idarəetmə texnologiyaları tətbiq edilib, əczaçı mütəxəssislərin hazırlanmasında müasir konsepsiya işlənib. İnnovasiya kimi ölkəmizdə dərmanların qiymətlərinin tənzimlənməsi məqsədi ilə respublika üçün vahid qiymət (referent) siyasəti qəbul olunub.
3. Azərbaycan əczaçılıq bazarında müasir mütəxəssisin idarə edilməsi problemi təhlil olundu, o cümlədən mütəxəssisin idarə edilməsi metodları, mütəxəssisin idarə edilməsi sisteminin vəziyyəti, əczaçılıq təşkilatlarında mütəxəssislərin idarə edilməsi

sistemində innovativ dəyişikliklər, əczaçı mütəxəssislərin peşə - şəxsiyyət hazırlığı təhlil edildi. Aşkarlandı ki, Azərbaycanda əczaçılıq bazarında müasir mütəxəssisin hazırlığı müsbət olsa da, onların idarə edilməsi sistemində bir sıra problemlər mövcuddur, bunları aradan qaldırmaq üçün praktiki tövsiyyələr verilir.

4. Azərbaycanda əczaçı mütəxəssislərin ixtisas təşəkkülü prosesinin təhlili adaptasiya və ixtisaslaşdırma mərhələsində ətraflı öyrənilmişdir. Əczaçı mütəxəssisin idarəçilik sisteminin struktur təhlili, əczaçı mütəxəssisin karyerasının gedişatında peşə səriştəliliyinin formalaşması şərtləri ətraflı öyrənilmişdir. Müəyyən edilmişdir ki, respublikanın aptekləri və əczaçılıq bazarında topdansatış müəssisələrinə rəhbərlik edilməsində həlledici mövqe Azərbaycan Tibb Universitetinin məzunlarına məxsusdur.
5. Əczaçı tələbələrin stressogenliyi öyrənildi. ATU - nun yuxarı kurs tələbələrinin sorğusundan məlum oldu ki, yalnız 52% tələbə öz ixtisasının reallıqları və onun yüksək stressogenliyi haqqında biliklərə malikdirlər. Bu onu göstərir ki, tələbələrdə stressə davamlılıq keyfiyyətlərinin formalaşdırılması üzrə tədris proqramının işlənib hazırlanmasına tələbat vardır. Mütəxəssislər ilə peşə sönmənin aradan qaldırlması üzrə profilaktik tədbirlər aparılmalıdır.
6. Azərbaycan əczaçılıq bazarının inkişaf xüsusiyyətləri nəzərə alınmaqla əczaçılıq sahəsində mütəxəssislərin peşə təcrübəsinin əldə edilməsi qabiliyyəti, əczaçı mütəxəssislərin əczaçılıq bazarının yeniliklərini qəbul etmək qabiliyyəti; əczaçılıq sahəsində fəaliyyət göstərən mütəxəssislərin həm fərdi həm də ictimai sağlamlığın formalaşdırılması, mühafizəsi və möhkəmləndirilməsinə yönəlmiş olduğunun qiymətləndirilməsi; əczaçı mütəxəssislərin peşə baxımından təşəkkül tapmasında ictimai əczaçılıq cəmiyyəti və assosiasiyalarının roluna yenidən baxılması imkanları öyrənilmişdir.
7. Ölkəmizin əczaçılıq bazarının müxtəlifliyi nəzərə alınmaqla dissertasiya işinin nəticələrinə əsaslanaraq müasir əczaçı

mütəxəssislərin hazırlanması üçün innovativ təşəkkül modeli işlənib hazırlanmışdır.

## PRAKTİKİ TÖVSİYYƏLƏR

1. Əczaçı mütəxəssislərin müasir dövrdə tam formalaşması üçün və yaxud peşəyönümlü ixtisaslaşması üçün, ictimai əczaçılıq təşkilatlarının yaranmasına böyük ehtiyac duyulur ki, bu da bir başa yeni, peşəkar keyfiyyətlərin alınmasına səbəb olub, müasir əczaçı mütəxəssislərin hazırlanmasında mühüm rol oynayır.
2. Əczaçılıq üzrə ali və orta ixtisaslı mütəxəssislərin hazırlanması ilə məşğul olan Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Aqrar Universitetinin, 1№ - li və 2№ - li tibb kollecləri , əczaçılıq firma, əczaçılıq kompaniyaları vahid bir proqram üzrə çalışıb, əczaçı mütəxəssislərin ölkəmizdə yetişməsi və inkişafına kömək etməlidir.
3. Azərbaycan Respublikasında əczaçı mütəxəssisinın idarəçilik sisteminin struktur hissəsi kimi “Əczaçı” standartları işlənilməlıidir, həmin standartlar normativ sənəd kimi müvafiq dövlət strukturlarında təsdiq edilməlidir. Əczaçı standartlarında mütəxəssisə bunları bilməsi lazımdır: dərman preparatlarının dövriyyəsini tənzimləyən normativ-hüquq aktları bilmək; müxtəlif farmakoterapevtik qruplar üzrə dərman preparatlarının çeşidinin tanınması; dərman preparatlarının keyfiyyətinə riayət edilməsinin müasir metodları və yanaşmaları; işgüzar ünsiyyət, mədəniyyət və peşə psixologiyanın, əczaçılıq menecmentinin əsasları; əczaçılıq marketinqi, satış qaydaları və əmtəənin qəbulu qaydaları haqqında biliklər.

## DİSSERTASİYANIN MÖVZUSU ÜZRƏ ÇAP OLUNMUŞ ELMİ İŞLƏRİN SİYAHISI:


1. Azərbaycanda əczaçılıq və tibb təchizatında innovasion yanaşmalar // Azərbaycan təbabətinin müasir nailiyyətləri, Rüblük elmi – praktik jurnal, Bakı, 2014, №4,142-145 s.( həmmüəllif: Vəliyeva M.N.)
2. Müasir əczaçılığın innovativ siyasətinin bəzi aspektləri // Azərbaycan təbabətinin müasir nailiyyətləri, Rüblük elmi – praktik jurnal, Bakı, 2015, №1, 176-180 s.( həmmüəlliflər: Əbilova V.K., Əliyeva A.H., Vəliyeva M.N)
3. Организация лекарственного обеспечения населения республики // Современная фармация: «Проблемы и перспективы развития» Материалы V Межрегиональный научно-практической конференции с международным участием. Владикавказ, 2015, 295-299 с.
4. Разработка методических подходов к инновационной деятельности аптечных предприятий в Азербайджане // Современная фармация: «Проблемы и перспективы развития» Материалы V Межрегиональный научно-практической конференции с международным участием. Владикавказ, 2015, 299-302 с. (соавтор: Велиева М.Н.,)
5. Государственное регулирование фармацевтической деятельности в Азербайджанской республике // Современная фармация: «Проблемы и перспективы развития» Материалы V Межрегиональный научно-практической конференции с международным участием. Владикавказ, 2015, 253-256 с.
6. Инновационное развитие фармацевтического образования в Азербайджане // European Journal of Biomedical and Life Sciences Austria, Vienna, 2016, №4, 49-53 p.( соавтор: Велиева М.Н.)
7. Milli əczaçılıq sektorunun səmərəli inkişafına dair // AMEA – nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri

doktoru, professor, Aqil Əlirza oğlu Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş elmi-praktik konfransın materialları. Bakı, 2016, 216-219 (həmmüəlliflər: Vəliyeva M.N, Khyavi R.)

8. Стратегия фармацевтический этики в практической деятельности фармацевтов //Биомедицина, Ежеквартальный научный журнал,Баку, 2017, №2, 90-93с.
9. Маркетинговые исследования по лекарственному обеспечению в Азербайджанской республике // European Journal of Biomedical and Life Sciences Austria, Vienna, 2017 №1, 95-98 p. (соавторы: Велиева М.Н., Магеррамов В.А.Магеррамова С.Г.)
10. Milli elmdə innovasion siyasətin formalaşmasına dair // Azərbaycan təbabətinin müasir nailiyyətləri, Rüblük elmi – praktik jurnal, Bakı, 2017, №1, 260-261 s. (həmmüəllif: Vəliyeva M.N.)
11. Azərbaycanin əczaçiliq bazarinda innovasion idarəetmə // Sağlamlıq, Elmi – praktik jurnal, Bakı,2017, №4, 133-136 s.
12. Перспективы развития фармацевтического образования в Азербайджане // Астана медициналык журналы, Kazaxstan, №4, 2017, 263-268 с.
13. Dərman vasitələrinin qiymətləndirilmə siyasətində innovasiya // Təbabətin müasir problemləri, Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş elmi-praktik konfransın materialları, Bakı 2017, 111 s.
14. Разработка методики стратегического инновационного развития фармацевтического образования в Азербайджане // Сибирский медицинский журнал, Иркутск, 2018, №2 (соавтор: Велиева М.Н.)
15. 15.Azərbaycanda əczaçı mütəxəssisin idarəçilik fəaliyyətinin öyrənilməsi // Tibb fakültəsinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans, 18-19 aprel, 2019, 205 səh.
16. Əczaçılıq cəmiyyətinin formalaşması və əczaçılıq sahəsində rolunun öyrənilməsi // Tibb fakültəsinin yaradılmasının 100

illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans, 18-19 aprel, 2019, 206 səh.

17. Ölkəmizdə əczaçı mütəxəssislərin fəaliyyətinin inkişafında peşə səriştəliliyin formalaşması şərtlərinin ğyrənilməsi // Azərbaycan Tibb Universitetinin 90 illik yubileyinə həsr olunmuş “Təbabətin Aktual Problemləri-2020”mövzusunda beynəlxalq elmi-praktik konqresin materialları, 19-20 dekabr, 2020, 409 səh.
18. Əczaçı mütəxəssislərin peşə fəaliyyətində emosional sönmə problemi //  Azərbaycan Əczaçılıq və Farmakoterapiya jurnalı, № 2, 2020, 20-23 səh.
19. Müasir əczaçılıq biznesinin reallığı // Azərbaycan Tibb Universitetinin 90, Azərbaycanda ali əczaçılıq təhsilinin 80 illik yubileyinə həsr edilmiş “Əczaçılığın Müasir Problemləri” mövzusunda V Beynəlxalq Elmi Konqresin materialları, 23-24 aprel, 2021, 275-276 səh.
20. Studying the Conditions for the Formation of Professional Competence in Developing the Activities of Pharmacists in our Country// II International Conference on Global Practice of Multidisciplinary Scientific Studies, Batumi, 26-28 iyul, 2022, 38 s.
21. Изучение системы подготовки кадров фармацевтического рынка в Азербайджане // научно-практическая конференция ГОУ «МГМУ им. Абуали ибни Сино» «Современная Медицина: традиции и инновации» с международным участием. 25 ноября 2022г. г. Душанбе, Таджикистан, ст.564-567
22. Əczaçılıq praktikasında əczaçılıq assosiasiyalarının rolunun öyrənilməsi // CƏRRAHİYYƏ Elmi-Praktik Jurnal, professor Bəhram Məmmədrəsul oğlu Aşurovun 80 illiyinə həsr olunmuş Elmi-Praktik Konfransın Materialları,  № 3, 2023

# İXTİSARLAR

ADAU – Azərbaycan Dövlət Aqrar Universiteti
ATU – Azərbaycan Tibb Universiteti
BƏF – Beynəlxalq Əczaçılıq Federasiyası
DF – dərman formaları
DP – dərman preparatı
DPT – dərman preparatlarına olan tələbat
DV – dərman vasitələri
DVAEM – dərman vasitələrinin analitik ekspertizası mərkəzi
EAP – Etibarlı Aptek Praktikası
ƏTİ – Əczaçılıq texnologiyası və idarəçiliyi
FİP – Federation İnternational Pharmaceutice
FM – farmakopeya məqaləsi
FV – farmakoloji vasitə
GPEP – Good Pharmacy Education Practice
İTM – innovasiya təchizat mərkəzi
MFM – müvəqqəti farmakopeya məqaləsi
MMC – Məhdud Məsuliyyətli Cəmiyyət
NS – normativ sənədlər
NTS – normativ-texniki sənədlər
PHU – predmet-hesab uçotu
SƏP – standart əməliyyat proseduru
SN – Səhiyyə Nazirliyi
ÜST – Ümumdünya Səhiyyə Təşkilatı

Dissertasiyanın müdafiəsi «23» may 2025-ci il tarixində saat "14⁰⁰"- da Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən BFD 4.18 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1022, Bakı şəh., Ənvər Qasımzadə 14, ATU (konfrans zalı).

Dissertasiya ilə Azərbaycan Tibb Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Tibb Universitetinin rəsmi internet saytında (amu.edu.az) yerləşdirilmişdir.

Avtoreferat «17» aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.04.2025
Kağızın formatı: 60x84 1/16
Həcm: 38360
Sifariş 225
Tiraj: 100
“Təbib” nəşriyyatı